# Tarixin tədrisi prosesində nəzəri materiallardan istifadənin işlənmə səviyyəsi

**Kazım Bağırlı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** kazımbaghirli@gmail.com

**Rəyçilər:** t.ü.e.d., prof. Q. Bəşirov,
p.ü.e.d., prof. M. Əmirov

**Açar sözlər:** interaktiv təlim, tarixi mənbələr, sənədli materiallar, tarixi abidələr, maddi mədəniyyət abidələri, etnoqrafiya amilləri, təbii abidələr

**Ключевые слова:** интерактивное обучение, исторические источники, документальные материалы, исторические памятники, материальные памятники культуры, этнографические факторы, памятники природы

**Key words:** interactive training, historical sources, documentary materials, historical monuments, material cultural monuments, ethnographic factors, natural monuments

Tam orta təhsil məktəblərində tarixi mənbələrin öyrənilməsində interaktiv təlim metodlarından istifadə iki hissədən ibarətdir. Birinci hissə tarixi mənbələrdirsə, ikinci hissə intearktiv metodlar və onlardan istifadə edərək tarixi mənbələrin öyrədilməsinin imkan və yollarıdır. Aydın məsələdir ki, respublikamızda bu günədək həmin problem hərtərəfli tədqiq olunmayıb. Problemin optimal həllinə nail olmaq üçün ilk növbədə tarixi mənbələr barəsində məlumatlar olan ədəbiyyatlara, sonra isə interaktiv metodlardan istifadə edərək onların təlimi-tədrisi ilə əlaqədar mövzular olan ədəbiyyatlara münasibətimizi bildirəcəyik.

Mövzumuzun birinci hissəsi geniş olduğuna görə istər dünya tarixində, istərsə də Azərbaycan tarixində bu haqda məlumatlar kifayət qədərdir. Lakin apardığımız tədqiqatda "tarixi mənbələri ümumi təsnifatı nədən ibarətdir"? sualına cavab tapmaq üçün həm sovet dövrü, həm də müasir dövr ədəbiyyatlarına müraciət etdik. Məlum oldu ki, hər iki dövrün təsnifatları üst-üstə düşür. Məsələn, Sovet dövrü tədqiqatçılarından olan A.Səfərov, A.Məmmədovun təsnifatları ilə müasir tədqiqatçılarımızdan olan M.Əmirov, T.Paşayevin təsnifatları eynilik təşkil edir. Buna görə də tədqiqat işimizdə hər iki dövrün təsnifatına yer ayırmağı lazım bildik.

1945-ci ildə Bakıda nəşr olunmuş "Azərbaycan tarixinə aid mənbələr və əsas ədəbiyyat" adlı qısa həcmli kitabçada Azərbaycan tarixinin çox qədim və zəngin tarixinin müxtəlif tarixi mənbələr əsasında öyrənildiyi və bu mənbələrin 1) maddi mədəniyyət abidələri (arxeoloji qazıntı və sairə nəticəsində əldə edilən daş, tunc, metal silahlar, alətlər, müxtəlif saxsı qablar, və s. Bundan başqa, qədim şəhərlər, qalalar, binalar, qübbələr, karvansaralar, kurqanlar); 2) etnoqrafiya amilləri (adətlər, ənənələr, ayinlər, yaşayış qaydaları, toy-yas münasibətləri, paltar-geyim və s.) 3) Şifahi xalq ədəbiyyatı (dastanlar və yaxud çox qədim dövrlər haqqında olan nağıllar və s.) 4) Yazılı mənbələr 1-Qədim Assuriya, Babailistan, Urartu padşahlarının daşüstü mixi yazıları; 2-Sikkə pullar üzərindəki yazılar, 3- Yazılı məxəzlər (əl yazıları, arxiv materialları, çap edilmiş əsərlər) olduğu qeyd edilir (5, s. 3-4).

Digər sovet tarixçilərindən olan A. Məmmədov tarixi mənbələri xarakterinə görə aşağıdakı növlərə ayırır:

1. Ədəbi xarakterli mənbələr. Buraya xronikalar, qədim məişət ədəbiyyatı, memuarlar,

həcvnamələr, məktublar, məqalələr, bəyannamələr və s. daxildir.

2. Akt xarakterli mənbələr. Buraya fərmanlar, aktlar, hər cür müqavilələr, qanunvericilik sənədləri, hüquqi sənədlər və s. daxil edilir.

3. Epiqrafik xarakterli mənbələr

M.M. Əmirovun "Tam orta məktəbdə tarixin fəal interaktiv təlimi metodikası" kitabına (2) və İ.Cəbrayılovun "Azərbaycan tarixinin tədrisi metodikası" vəsaitinə (1) diqqət yetirək. Hər iki vəsaitdə A.Məmmədovun təsnifatına uyğun, lakin onun tam əksi olmayan təsnifata rast gəlirik. M.Əmirovun kitabında tarix dərsliklərində istifadə olunan sənədli materialları aşağıdakı qruplara (3, s. 314) bölünür:

— Ədəbi xarakterli mənbələr-hekayə,təsviri mənbələr. Bunlara salnamə və xronikal parçalar, memuarlardan, pamfletlərdən, məqalələrdən, fraqmentlər aiddir.

— akt xarakterli mənbələr (fərmanlar, dövlət aktları, qanunlar, istintaq işləri).

Bu növ sənədlər ictimai və siyasi quruluş, mənəviyyat, dini məsələləri özündə ehtiva edir.

— bədii ədəbiyyat sənədləri: şifahi xalq yaradıcılığı əsərləri (miflər, eposlar, təmsillər) və ədəbiyyat əsərləri (proza, poeziya, satira).

İ. Cəbrayılovun müxtəlif növ mənbələri, sənədli materialları, (1, s. 117-118) təsnifatı M. Əmirovun təsnifatıyla eynilik təşkil edir.

Müəlliflərin mənbələr barəsindəki fikirləri də dərsliklərdəki tarixi mənbələri tədris etmək baxımından müəllimlər üçün nümunə olmalıdır. Onların qeydlərinə görə məktəb dərsliklərində və müntəxəbatlarda ədəbi xarakterli mənbələr geniş tədqim olunmuşdur. Akt xarakterli mənbələrdən istifadə yalnız onların məzmununun müəllimin nəzarət və rəhbərliyi ilə təhqiq edilməsi yolu ilə mümkündür. Bir sıra hallarda sənədin mətninin mənimsənilməsini asanlaşdırmaq üçün onu uyğunlaşdırmaq lazımdır (mürəkkəb terminlər aradan qaldırılmalı, mətnin ardıcıllığı gözlənilməlidir). Bədii ədəbiyyat sənədlərində də tarixi reallıq əks olunmuş, onlar dövrün koloritini sanki işıqlandırırlar.

Əldə etdiyimiz ədəbiyyatlar içərisində "Azərbaycan tarixi üzrə qaynaqlar" kitabı (4) da tarixi mənbələr baxımından diqqətimizi cəlb etdi. Kitaba ən qədim çağlardan XIX əsrin 70-ci illərinə qədər ki dövrü əhatə edən çox gərəkli sənədlər və təsviriyönlü mətnlərdən seçmələr daxildir. Kitabda əks olunmuş yazılı tarixi mənbələr dövrlərə bölünmüş və hər dövrə aid olan yazılı mənbələr ayrıca göstərilmişdir. Azərbaycan tarixi dərsliklərində əsas mövzular və yazılı tarixi mənbə kimi verilən sənədlərin çoxu bu mənbələrdən götürülmüşdür. Kitabda antik dövrün (miladın IV yüzilinədək) mixi yazı ilə yazılmış daşüstü salnamə yazıları, yunan tarixçilərinin kitabları, ilkin orta əsrin (IV-XII yüzillikləri) türkdilli dastanları, tarixçilərin türkdilli tarix kitabları və ərəb səyyahların ərəbdilli səyahətnamələri, monqol basqınları və sonrakı dövrlərin (XIII-XVIII yüzilliklər) Azərbaycan tarixçilərinin kitabları və Azərbaycan hökmdarlarının fərmanları, məktubları, hökmləri, ərəb səyyahlarının səyahətnamələri, gündəlikləri, Qərbi Avropa və Rusiya elçilərinin gündəlikləri və XIX yüzilliyin sənədləri öz əksini tapmışdır (4, s. 16-314).Tarix müəllimləri tarix təlimində bu mənbələrdən istifadə edə bilərlər.

Talıb Paşayevin "Tarixin tədrisi: Tarixilik və müasirlik" adlanan metodik vəsaitində (3) muzey dərsləri ilə bağlı V sinifdə Azərbaycan tarixi dərsliyindən "Qobustan abidələri" mövzusunun keçirilməsi diqqətimizi cəlb etdi (3, s.137-139). Müəllif dərsi iki dərs həcmində dörd mərhələyə ayıraraq keçmişdir. Birinci mərhələ sinifdə hazırlıq dövrüdür. Bu mərhələdə müəllim hazırladığı çoxsaylı sualları abidələr qarşısında şagirdlərə verir, onların cavablarını dinləyərək diktofona yazır və onların müstəqil fikirlərini dinləyərək onları düzgün izahat verməyə istiqamətləndirir. Şagirdlərə qayaüstü şəkillər göstərir, hazırladığı tapşırıqları

şagirdlər arasında bölür, muzeydə keçiriləcək dərsin sxeminin hazırlanmasını tapşırır. İkinci mərhələdə dərs muzeydə keçirilir. Havada qayaüstü eksponatlarla tanışlıq, şəkillərin çəkilməsi, şagirdlərin müstəqil fikir yürütmələri və abidələrə emosional münasibətləri dinlənilərək diktofona yazılır. İkinci dərs üçüncü və dördüncü mərhələləri əhatə edir. Üçüncü mərhələ muzeydən qayıtdıqdan sonra şagirdlərin çəkdiyi şəkillər, sxemlər, qeydlər, apardığı müşahidələr əsasında fikirlərinin dinlənilməsi və mövzunun ümumiləşdirilməsini əhatə edir. Növbəti dördüncü mərhələdə "Qobustan Azərbaycanın qədim yaşayış məskənidir" mövzusunda şagirdlərə esse yazmağı öyrətmək, foto stendlərin hazırlanmasını öyrətmək təşkil edir. Müəllifi qeyd edir ki, tarixin bu metodlarla tədrisi dərsin keyfiyyətini yüksəldir. Yeri gəlmişkən qeyd edək ki, müəllifin metodik vəsaitində Yunan-İran müharibələrinin müasir metodlarla tədrisinin verilmiş geniş icmalı (3, s. 23-32) bu gün müasir metodlardan istifadə edərək öz dərsini qurmaq istəyən tarix müəllimləri üçün yaxşı nümunədir.

Azərbaycandakı tarixi mənbələrdən bəhs edən kitablardan biri də Talıb Paşayevin "Tarixin tədrisi: tarixilik və müasirlik" adlı elmi-metodik vəsaitidir. Müəllifin hesablamalarına görə respublikamızda 3630-dan artıq abidə var ki, onlardan 3297-dən artığı qədim və orta əsrlər, 333 adda abidə XX əsrdə yaradılmışdır. Bunlardan 122-si tarixi əhəmiyyətli abidələrdir (2, s. 143). Maddi və yazılı tarixi mənbələrin tarixi abidələrdə əksini tapdığını yazan müəllif onların aşağıdakı növlərini (2, s. 153-154) qeyd edir:

1. Tarixi abidələr-dini tikililər, görkəmli siyasi, dövlət, hərbi xidmət xadimlərinin, xalq qəhrəmanlarının, elm, ədəbiyyat və incəsənət xadimlərinin həyatı ilə əlaqədar binalar, qurğular, xatirə yerləri və əşyalar;
2. Arxeoloji abidələr-qədim şəhər yerləri, kurqanlar, qədim məskənlərin, istehkamların, kanalların, yolların qalıqları, qədim qəbiristanlıqlar, daş heykəllər, qayaüstü təsvirlər, qədim əşyalar, qədim yaşayış məntəqələrinin qalıqları;
3. Təbii abidələr-mağaralar, daşaltı oyuqlar, şəlalələr, nadir ağaclar, yeraltı və yerüstü sərvətlər və s.
4. Şəhərsalma və arxitektura abidələri-tarixi mərkəzlər, meydanlar, küçələr, bağ-park sənət əsərləri və s.
5. Sənədli abidələr-yalnız daşlar, dövlət hakimiyyəti və dövlət idarə orqanlarının aktları, digər yazılı və qrafik sənədlər, kino-foto sənədlər və yazıları, habelə qədim və digər əlyazmaları və arxivləri və s.

Qeyd edək ki, əsərdə verilmiş paraqraflar içərisində "Arxeologiya" və "Diyarşünaslıq" adlanan paraqraflar tarixi mənbələrimizi öyrənmək baxımından çox dəyərli mənbələrdir.

Tədqiqat işimiz sırf ümumtəhsil məktəbləri ilə bağlı olduğundan metodik vəsaitlərdəki bölgü də diqqətimizdən yayınmadı. Belə ki, V Sinif üçün Azərbaycan tarixi dərsliyində tarixi mənbələri 4 yerə (31, s. 6) ayırırlar.

Talıb Paşayev özünün "Tarixin tədrisi: Tarixilik və müasirlik" kitabında Azərbaycanın antik dövrlərdən müasir dövrümüzədək olan abidələrinin (maddi mənbələrin) dövrlərlə qruplaşdıraraq vermişdir (1, s. 126-133). Hansı ki, Azərbaycan tarixi dərsliklərində də bu maddi mənbələr haqqında məlumatlara geniş yer verilib. Mövzumuz tarixi mənbələrlə bağlı olduğundan bunları qeyd etməyi lazım bildik.

**Məqalənin aktuallığı.** Tarixin tədrisi prosesində nəzəri materiallardan istifadənin işlənmə səviyyəsinin öyrənilməsi faydalıdır.

**Məqalənin elmi yeniliyi.** Tarixin tədrisi prosesində nəzəri materiallardan istifadənin işlənmə səviyyəsinə diqqət yetirilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Doktorant və dissertantlar öz tədqiqatlarında

məqalədən istifadə edəcəklər.

## Ədəbiyyat

1. İ.Cəbrayılov. Azərbaycan tarixinin tədrisi metodikası. Bakı, 2007.
2. M. Əmirov. Tam orta məktəbdə tarixin fəal interaktiv təlimi metodikası. Bakı, 2010.
3. T.Paşayev. Tarixin tədrisi: Tarixilik və müasirlik. Bakı, 2006.
4. S.Əliyarlı. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 2005.
5. Azərbaycan tarixinə aid mənbələr və əsas ədəbiyyat. Bakı, 2008.

**К. Багирли**

## Уровень использования теоретических материалов в учебном процессе по истории

## Резюме

В данной статье анализируется уровень использования теоретических материалов в процессе преподавания истории. Основным вопросом здесь является то, как обращаться с теоретическими материалами, как преподавать и как использовать современное обучение.

**K. Baghirly**

## The level of use of theoretical materials in the teaching process of history

## Summary

This article analyzes the level of use of theoretical material in the teaching process of history. The main issue here is how to handle theoretical material, how to teach and how to use modern training.

**Redaksiyaya daxil olub:** 07.06.2019